1 iyul / 2021

Azad Azərbaycan

# Bir dəstə çiçək

## (Hekayə)

*Oqtay Ərgünəş (Əliyev)*

**Xəbərlər gəlirdi: Qarabağda, Şuşa ətrafında təhlükə artmaqdadır. Xalqımızın qəhrəmanlıq simvolu Şuşanın müdafiəsi namus-qeyrət məsələsi idi. Ordu sıralarından yenicə təxris olunmuş Polad artıq Müdafiə Nazirliyinə müraciət edərək, könüllü olaraq qaynar döyüş mövqeyinə Şuşanın müdafiəsinə getməkdə israrlıydı.**

Yəqin ki, məni yaxşı başa düşürsən, Səadət. Vətən dardaykən biz başımızı uca tuta bilmərik - nişanlısı ilə axşam görüşündə Polad qəti fikrini sevgilisinə bildirdi. Bir az həyəcanlı, lakin qürurlu görünürdü.

Nişanlandığı zamandan Poladın xarakterinə yaxşı bələd olan Səadət etiraz etmədi. Əksinə, Poladı daha da ruhlandırdı:

- Müqəddəs torpaqlarımızı bəs kim qorumalıdır. İnşaallah, qələbə ilə dönərsən toyumuzu edərik!

Könüllüləri aparan avtobuslar yola düşməyə hazırlaşırdı. Polad Səadətin əllərini ovcuna aldı, onu sinəsinə sıxdı:

- Sənə gözəl Şuşa dağlarından nə gətirməyimi arzulayırsan?

- Canının sağlığını istəyirəm! Əgər imkan düşsə, deyirlər "Xarı bülbül" məhəbbət çiçəyi var, həmin qəribə çiçəkdən gətirərsən!

**Xəbərlərdə deyirdilər ki, mənfur ermənilər öz havadarları ilə Qarabağın əşrəfi Şuşanı işğal emək üçün bütün vasitələrdən istifadə edirdilər. Döyüş bölgələrində əzizləri olanların qəlbi göynəyirdi, yuxuları ərşə çəkilmişdi.**

Aylar, həftələr ötürdü. Hər gün ölüm-itim, dağılan tifaqların bəd xəbəri gəlirdi. Səadət nişanlısından nigarandı. Polad telefon açıb tezliklə görüşəcəklərini demişdi.

***

Şuşanın müdafiəsi uğrunda qanlı döyüşlər gedirdi. Gənc əsgərlər gecələr səlavalardan keçib, düşmən snayperlərindən yayınıb, qayalardan dırmaşıb Cıdır düzündə, sıldırım qayaların sinəsində bitən "Xarı bülbül" çiçəyini tapıb, dərməyə tələsirdilər. Allı-güllü çiçəklərin içərisində "Xarı bülbül"ü qaranlıqda tapmaq müşkülə çevrilmişdi. Çünki düşmənlər bu məkanları xüsusilə atəş altında saxlayırdılar. Döyüşlərsə səngimək bilmirdi. Silah-sursat və köməkliklər gəlmirdi.

Qərara gəldilər ki, çəmənlikdə, ehtimal olunan yerlərdə, gecənin qaranlığında, atəş altında olsa da, çiçəkləri biçib kisələrdə gətirib seçsinlər. Əsgər kazarmasının ortasında boşaldılan torbaların başına yığılan gənclər arzu, həvəslə dəstələr düzəldər, istəklilərinə hədiyyə hazırlayırdılar (Kimlərin bu döyüşlərdən salamat qayıtması isə heç kəsi düşündürmürdü). Hər kisələrdəsə yalnız 3-4 ədəd "Xarı bülbül" çiçəyi tapmaq olardı. Risk, təhlükə isə çox böyük idi.

***

Xəbər quşqanadlı olur, bəd xəbərsə Sibir tufanı kimi qapıları döyür. Səadət neçə gecələrdi qarışıq yuxularla çimir eləmirdi, qor dolmuşdu canına. Qeyri-ixtiyari pıçıldadı:

- İlahi, salamatçılıq eylə!

**Cəbhə bölgəsindən gələn sanitar helikopteri meydançaya düşəndə, hamı təxliyə olunmuş yaralıları qarşılamağa qaçdı. Səadətin qəlbi köksünə sığmırdı. Görəsən, Polad necədir?**

Xərəkdə gətirilənləri soraqladılar. Boylu-buxunlu, təbiətən işıqlı simalı şumal bir yaralı oğlanı əsgərlər gətirmişdilər. Səadət qeyri-ixtiyari onu xərək qarışıq qucaqladı. Poladın avazımış sifətində bir nisgil, sərtlik, sinəsinin üstündə isə bir dəstə "Xarı bülbül" çiçəyi vardı. Titrək əlləri ilə çiçək dəstəsini qaldırıb Səadətə verdi.

- Arzunu yerinə yetirdim, deyə, - pıçıldadı.

Onun hekayətini əsgər dostları Səadətə danışdılar. **Polad çox risklərdən keçərək çiçək dəstəsini toplamışdı. Qəhrəmanlıqla döyüşən Polad ağır yaralanmış, sol ayağını amputasiya eləmişdilər. Nişanlısının arzusunu yerinə yetirmişdi. Bir dəstə "Xarı bülbül" çiçəyini düşmən atəşi altından dərib, gətirərkən yaralandığını da qeyd etdilər. Səadəti dəli bir hönkürtü tutdu. Yaralıları hərbi hospitala apardılar.**

- Əzizim, səninlə çox vacib söhbətim var - deyə, Polad ümidsizcəsinə inlədi.

**Səadət nə qədər təşəbbüs göstərsə də, Polad üzünü çevirdi və susdu. Axşam görüşündə isə Polad tanınmaz olmuşdu. Ağrılardan iztirab çəkən Polad sözlü-söhbətli adama oxşayırdı. Onun canüstə olan ağır xəstəyə oxşar sıxıntılı - iniltili səsi sükutu pozdu. Poladın gözləri nəyi isə haraylayırdı, sanki boğulurmuş kimi kəkələdi:**

- Səadət, neçə illərdi nişanlıyıq. Sevgimizin üzərinə heç vaxt ləkə düşməyib. Sən çox ləyaqətli, abırlı-həyalı və xoşbəxt olmağa haqqı çatan bir qızsan. Mənsə, görürsən də, ayağımın birini itirmişəm, ağır yaralarım var, bədən qüsurlarım çoxdur. Sağalmağa ümidim yoxdur. Belə, çox götür-qoy eləmişəm, mənim kimi əlil insanla ömrünü çürütməyini arzulamıram. Buna mənim ixtiyarım da yoxdur. Qərara gəlmişəm ki, taleyimlə barışmalıyam. Biz ayrılmalıyıq! Sən xoşbəxt ailə xanımı olmağa layiqsən. Odur ki, xahiş edirəm, gələcək həyatın barədə ciddi düşün, məndən sənə layiqli ər olmayacaq! Xahiş edirəm, məni yoluxmağa bir daha gəlmə! Mənim ümidsiz, acı taleyimin sonu yoxdur. Məni bağışla, səni xoşbəxt edə bilmədim. Axı, sən ömrü boyu əlil arabasında məni ora-bura daşımalı olacaqsan! Bunları bilməlisən!

Sevgililərin acı taleyi hekayətini dinləyən, müharibəni lənətləyən otaqdakı yaralılar da, həkim və tibb personalı da Poladla Səadəti dövrəyə almışdılar. Qızlar göz yaşlarını sel kimi axıdırdılar.

Səadət donub qalmışdı. Diksinib sanki yuxudan ayıldı. Poladın kəsilmiş ayağını bərk-bərk qucaqlamışdı, tənziflə sarğılanmış əllərini sinəsinə, qəlbinin üstə sıxdı, hələ sağalmamış qəlpə yaralarını öpüşlərə qərq etdi:

- Sənə bütün həyatım qurban, Polad! Mənə sənin təkcə quru nəfəsin bəsdi! Sənin kimi qəhrəman oğulla fəxr edirəm! Sən belə düşünmə, əgər bir daha desən, mən gedib intihar edərəm, onu bil, Polad! Biz xoşbəxt olacağıq!..

**Başlıcası istəkdi. Bu əməlisalehlik yalnız mərd, namuslu, qeyrətli Azərbaycan xanımlarının xarakterik xüsusiyyətlərindən biridir. Vətənin azadlığı uğrunda şirin canından keçməyə hazır olan Polad kimi qəhrəman oğlullara Dövlət tərəfindən qayğı və hərtərəfli köməklik göstərildi. Onlara ev-eşik, minik maşını verildi, üç övladları oldu. Səadət və Poladın xoşbəxt həyat sürən ailəsi ilə hamı qürur duyurdu.**